# ELMİN BİBLİOQRAFİK İNFORMASİYA TƏMİNATINDA MƏRKƏZİ ELMİ KİTABXANANIN FƏALİYYƏTİ
## *(2024-cü ildə çap olunmuş biblioqrafik göstəricilər əsasında)*

***Aytən Qəzənfər qızı Əliyeva***

*Filologiya üzrə fəlsəfə doktoru,*
*AMEA Mərkəzi Elmi Kitabxana*
*Biblioqrafiya şöbəsinin müdiri*
*Yasamal rayonu, Hüseyn Cavid pros. 129*
*dissertant1@gmail.com*

***Açar sözlər:*** *kitabxana, yüz il, elmi müəssisə, biblioqrafik büro, biblioqrafik göstərici*

***Ключевые слова:*** *библиотека, сто лет, научное заведение, библиографическое бюро, библиографический указатель*

***Keywords:*** *library, hundred years, scientific ınstitution, bibliographic bureau, bibliographic index*

**Xülasə:** Məqalədə Mərkəzi Elmi Kitabxananın100 illik fəaliyyəti dövrünə qismən nəzər salınmışdır. Kitabxana ən qədim informasiya xidməti olaraq cəmiyyətin sosial sifarişi kimi meydana gəlmiş və müxtəlif dövrlərdə, o cümlədən bu günə qədər də universallığına, mötəbərliyinə görə yeganə informasiya müəssisəsidir. İnformasiya ehtiyatlarının müntəzəm və planlı şəkildə zənginləşdirilməsindən, eyni zamanda oxucuların informasiya tələbatlarına uyğun formalaşdırılmasından və 2024-cü ildə AMEA Rəyasət Heyətinin Qərarına əsasən Mərkəzi Elmi Kitabxana tərəfindən "Azərbaycanın elm və mədəniyyət xadimləri" seriyası adı altında çapdan çıxan biblioqrafik göstəriciləri haqqında məlumat verilir.

**Резюме:** В статье частично рассматривается столетняя деятельность Центральной научной библиотеки. Библиотека как древнейшая информационная служба возникла по социальному заказу общества и на протяжении различных периодов, в том числе и по сей день, является единственным информационным учреждением по своей универсальности и надёжности. Даётся информация о регулярном и плановом обогащении информационных ресурсов, их формировании в соответствии с информационными потребностями читателей, а также о библиографических указателях, изданных Центральной научной библиотекой в 2024 году под серией «Деятели науки и культуры Азербайджана» на основании Решения Президиума НАНА.

**Summary:** The article is dedicated to the 100-year activity of the Central Scientific Library. Partially revised, the library, as the oldest information service, emerged as a social order of society and has,to this day, remained unique in its universality and reliability, serving as an information enterprise. Regular and systematic maintenance of information resources, enrichment of their content, as well as providing information to readers, has been shaped according to the needs of the Presidium of the National Academy of Sciences of Azerbaijan (NANA) in 2024. According to the decision of the Board, the Bibliography Department of the Central Scientific Library has published a series titled "Scientists and Cultural Figures of Azerbaijan". Information about bibliographic references is provided.

Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanası (MEK) ölkəmizin kitabxana-informasiya təminatının əsas mərkəzlərindən biridir.

Tariximizin yazılı salnaməsinin şərəflə qorunduğu, elmin açarı olan kitablarımızın mühafizə olunduğu məbədgahımızın bu il 100 illik yubileyidir. Kitabxananın 100 illik fəaliyyəti dövrünə nəzər saldıqda görürük ki, ən qədim informasiya xidməti olaraq cəmiyyətin sosial sifarişi kimi meydana

gəlmiş və bu günə qədər universallığına, mötəbərliyinə görə ən iri informasiya müəssisəsidir. İnformasiya ehtiyatlarının müntəzəm və planlı şəkildə zənginləşdirilməsi, eyni zamanda oxucuların informasiya tələbatlarına uyğun formalaşdırılması və inkişafı məqsədilə kitabxana günü-gündən inkişaf dövrünü yaşayır.

Mərkəzi Elmi Kitabxana Azərbaycanın görkəmli ziyalıları N.Nərimanov, Ə.Haqveridyev, T.Şahbazi, H.Zeynallı və başqalarının təşəbbüsü və yaxından köməyi ilə 1923-cü ildə təşkil edilmiş "Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti"nin nəzdində yaradılmışdır. 1924-cü ildə Cəmiyyətin nəzdində yaradılan "Biblioqrafik büro" MEK-in təşəkkülü üçün ilkin baza olmuşdur. 1925-ci ildə kitabxananın yaradılması haqqında qərar qəbul edilir və Elmi kitabxana rəsmi fəaliyyətə başlayır. Kitabxananın ilk rəhbəri Hənəfi Zeynallı olmuşdur. Daha sonra kitabxanaya müxtəlif illərdə S.M.Yəhyazadə, Y.İ.Tahirov, N.F.Axundov, R.A.Kazımov, M.M.Həsənova, E.T.Əfəndiyev rəhbərlik etmişdir. Hazırda Mərkəzi Elmi Kitabxananın direktoru texnika elmləri doktoru, dosent Hüseyn Hüseynovdur.

1945-ci ildə Azərbaycanda müstəqil Elmlər Akademiyasının yaradılması ilə əlaqədar Mərkəzi Elmi Kitabxananın inkişafında yeni inkişaf mərhələsi başlanılır. Belə ki, kitabxanaya bütün keçmiş Sovet İttifaqında nəşr olunan ədəbiyyatın məcburi pullu nüsxəsini əldə etmək səlahiyyəti verilir, məlumat biblioqrafiya işinin yaxşılaşdırılması istiqamətində iş aparılır, 1947-ci ildən yeni daxil olan ədəbiyyatın bülletenləri tərtib edilir, elmi-tədqiqat institutlarına göndərilir. 1972-ci ildə EA Mərkəzləşdirilmiş Kitabxana Sistemi yaradılmışdır. 1984-cü ildən kitabxana respublikamızda nəşr edilmiş çap məhsullarının pulsuz məcburi nüsxəsini almağa başlayır.

2003-cü ildə Mərkəzi Elmi Kitabxanaya elmi müəssisə statusu verilmişdir. 2006-cı ildə təbiətşünaslıq, sosial-iqtisadi, siyasi, humanitar və texniki elm sahələri üzrə ən böyük kitabxana sayılan MEK-də dünya xalqlarının 50 dildə nəşr edilmiş 3 milyondan artıq elmi ədəbiyyat fondu var idi [3,5 ].

AR Prezidenti cənab İlham Əliyevin 29 yanvar 2011-ci il tarixli "Azərbaycan Milli Elmlər Akademiyasının maddi-texniki bazasının möhkəmləndirilməsi haqqında" sərəncamı ilə əlaqədar həyata keçirilən MEK-in yeni tipli binasının inşası prosesi bütövlükdə ölkəmizdə, elmə, təhsilə, kitabxana işinin inkişafına böyük töhfə verdi. 2014-cü ildə kitabxanamız üçün yaradılan yeni infrastruktur bina kitaba və kitabxanaya verilən qiymətin göstəricisi idi.

Mərkəzi Elmi Kitabxanada elmi tədqiqat işləri Elmi Şuranın qərarı ilə 2014-cü ilə qədər kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq sahələrində aparılan fundamental nəzəri və tətbiqi xarakterli tədqiqat işlərinin səmərəliliyinin artırılmasına yönəldilmiş və mühüm elmi nəticələr əldə edilmişdir.

AMEA Rəyasət Heyətinin Qərarına əsasən Mərkəzi Elmi Kitabxananın Biblioqrafiya şöbəsində "Azərbaycanın elm və mədəniyyət xadimləri" seriyası adı altında biblioqrafik göstəricilər çap olunur. Qeyd olunan seriya ilə biblioqrafiyalar 1964-cü ildən görkəmli kitabxanaşünas alim, biblioqraf Rasim Kazımovun təşəbbüsü ilə çap edilməyə başlamışdır. Şəxsi biblioqrafik göstəricilərlə yanaşı eyni zamanda hər il mövzu biblioqrafik göstərici də çap olunur. MEK tərəfindən 2024-cü ildə 17 şəxsi biblioqrafik göstərici çap olunmuşdur. Bunlardan 10-u texnika elmləri sahəsində uğur qazanmış alimlərin, digərləri isə biologiya, şərqşünaslıq, tarix, iqtisadiyyat, tibb sahəsində nailiyyət əldə etmiş alimlərin biblioqrafiyalarıdır.

Biblioqrafik göstəricilərdə alimlərin həyat və fəaliyyətinin əsas tarixləri, kitabları, monoqrafiyaları, redaktoru və məsləhətçisi olduğu kitablar və eyni zamanda alimlərin namizədlik və doktorluq dissertasiyaları, elmi məqalələri öz əksini tapır. Həmçinin, göstəricilərə alimlərin ictimai və elmi-pedaqoji fəaliyyəti haqqında qısa oçerk, görkəmli elm xadimlərinin alim haqqında yazıları, elmi rəhbəri və məsləhətçisi olduğu dissertasiya işləri də daxil edilir. Materiallar bölmələr üzrə qruplaşdırılır, xronoloji qaydada əlifba ardıcıllığı ilə çap olunduğu dildə verilir. Vəsaitlərdən istifadəni asanlaşdırmaq məqsədilə göstəricilərin sonunda soraq-axtarış aparatı da tərtib edilir.

2024-cü ildə MEK tərəfindən çap olunmuş şəxsi biblioqrafiyalara nəzər salaq:

Texnika sahəsinin alimləri: AMEA-nın müxbir üzvü, texnika elmləri doktoru, professor Qeylani Minhac oğlu Pənahovun 70 illik yubileyi münasibətilə çap olunmuş biblioqrafik göstərici 1984-2024-cü illərini əhatə edir. Biblioqrafiyaya daxil edilmiş mənbələr ümumilikdə 11 bölmə, 8 yarımbölmə içərisində xronoloji qaydada qruplaşdırılmışdır.

AMEA-nın müxbir üzvü, texnika elmləri doktoru, professor Surxay Cabbar oğlu Əkbərovun 70 illik yubileyi münasibətilə çap olunmuş biblioqrafik göstərici 1981-2024-cü illəri əhatə edir və 527 mənbə toplanmışdır.

AMEA vitse-prezidenti, kimya elmləri doktoru, professor, "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzinin direktoru Dövlət Mükafatı laureatı akademik Tofiq Murtuza oğlu Nağıyevin biblioqrafiyasına müəllidfin elmi, ictimai, pedaqoji, təşkilatçılıq fəaliyyəti, 42 patent və müəlliflik şəhadətnamələrinə dair məlumatlar daxil edilmişdir. Akademikin rəhbərliyi ilə 24 fəlsəfə doktoru və 1 elmlər doktoru müdafiə etmişdir.

Əməkdar elm xadimi, Şöhrət və Şərəf ordeni laureatı , akademik, neft kimyası və üzvi kimya sahəsində görkəmli alim Vaqif Məcid oğlu Fərzəliyevin 85 illiyi münasibətilə çap olunmuş biblioqrafik göstərici onun fəaliyyətinin 1962–2024-cü illərini əhatə edir.

AMEA-nın müxbir üzvü, fizika-riyaziyyat elmləri doktoru, professor Əyyub Salah oğlu Quliyevin biblioqrafiyası alimin 70 illik yubileyi münasibətilə tərtib olunmuşdur. Alim Günəş sistemi cisimləri üzrə mütəxəssisdir. Onun elmi tədqiqatları kometlərin mənşəyi, komet-planet və komet-Günəş əlaqələri, koyper cisimləri, naməlum planet probleminə həsr olunmuşdur. Ümumilikdə 152 mənbə daxil edilmişdir.

AMEA-nın həqiqi üzvü, fizika-riyaziyyat elmləri doktoru, professor Nazim Timur oğlu Məmmədovun biblioqrafik göstəricisi 70 illik yubileyi münasibətilə tərtib olunmuşdur. Akademik ümumilikdə 370 elmi əsərin, 4 müəlliflik şəhadətnaməsinin, 1 respublika və 2 xarici patentin müəllifidir. Göstəricidə qrant layihələri, patentlər və müəlliflik şəhadətnamələri haqqında mənbələr də yer almışdır. Göstəriciyə ümumilikdə 333 mənbə daxil edilmişdir.

AMEA-nın akademiki, fizika-riyaziyyat elmləri doktoru, professor Ovsat Bəhram oğlu Abdinovun 80 illik yubileyi münasibətilə hazırlanan biblioqrafik göstəricisi 1969-2024-cü illəri əhatə edir. Alimin rəhbərliyi ilə Fizika İnstitutunun Yüksək enerjilər fizikası laboratoriyasının bazasında Azərbaycanda ilk Milli GRİD-seqmenti yaradılmışdır. Göstəticiyə ümumilikdə 960 mənbə daxil edilmişdir.

AMEA-nın müxbir üzvü Beynəlxalq Eynşteyn mükafatına layiq görülmüş, Əməkdar elm xadimi Vəli Allahverdi oğlu Hüseynovun 60 illik yubileyi münasibətilə çap olunan biblioqrafik göstərici 1994-2024-cü illəri əhatə edir. Müxtəlif illərdə TEMPUS, İntas, Beynəlxalq Astronomiya Birliyi, Beynəlxalq Təmiz və Tətbiqi Fizika Birliyi, Alman Tədqiqat Birliyi, Rusiya Fundamental Tədqiqatlar qrantlarını qazanmışdır. Göstəriciyə ümumilikdə 164 mənbə daxil edilmişdir.

AMEA-nın müxbir üzvü, Azərbaycanın mexanika-riyaziyyat sahəsinin görkəmli nümayəndələrindən biri, fizika-riyaziyyat elmləri doktoru, Yusif Əmən oğlu Əmənzadənin 110 illiyinə həsr olunmuş biblioqrafik göstərici onun ilk göstəricisidir. Göstərici alimin 1958-1982-ci illərdəki fəaliyyətini əks etdirir. Ümumilikdə 102 mənbəni əhatə edir.

AMEA-nın müxbir üzvü, texnika elmləri doktoru, professor Böyükağa Əliqulu oğlu Əzimovun 100 illik yubileyi münasibətilə çap olunan biblioqrafik göstərici 1948-2024-cü illəri əhatə edir. Alimin elmi tədqiqatları, əsasən idarəetmənin avtomatlaşdırılmasına həsr olunmuşdur. O, respublikada neft kibernetikası sahəsində elmi istiqamətin əsasını qoymuşdur. Ümumilikdə 269 mənbə daxil edilmişdir.

Biblioqrafik göstəricilər mexanika-riyaziyyat sahəsində çalışan alimlər, bu istiqamətdə təhsil alan tələbələr və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

AMEA-nın həqiqi üzvü, Əməkdar elm xadimi, biologiya elmləri doktoru, professor Tariyel Hüseynəli oğlu Talıbovun biblioqrafik göstəricisi 1976-2024-cü illəri əhatə edir. Alim 360-a yaxın elmi əsərin, 23 monoqrafiya, 21 kitab, 9 metodik vəsaitin, 3 xəritə, 2 patent, 2 proqramın müəllifidir. Ümumilikdə göstəriciyə 497 mənbə daxil edilmişdir.

AMEA-nın müxbir üzvü, professor zoologiya elmi sahəsində uğur qazanan İlham Xəyyam oğlu Ələkbərovun biblioqrafik göstəricisi 1972-2023-cü illəri əhatə edir. 2005-2009 -cu illərdə Texas Universitetinin alimləri ilə Meksika körfəzində və Xəzər dənizində birgə tədqiqatlar aparmışdır. Ümumilikdə göstəriciyə 221 mənbə daxil edilmişdir. Hal-hazırda Beynəlxalq Zooloqlar Cəmiyyətinin və Azərbaycan Zooloqlar Cəmiyyətinin üzvüdür. Protozoologiya üzrə 4 aparıcı Avropa jurnalının rəyçisidir.

AMEA-nın həqiqi üzvü Fazil Səməd oğlu Qurbanovun 80 illik yubileyi münasibətilə biblioqrafik göstəricisi çap olunmuşdur. Azərbaycan Respublikasının Əməkdar elm xadimi fəxri adına layiq görülmüş, 2019-cu ildə “Şöhrət” ordeni ilə təltif edilmiş alimin göstəricisi 1972-2023-cü illəri əhatə edir. Ümumilikdə göstəriciyə 318 mənbə daxil edilmişdir.

AMEA-nın həqiqi üzvü, “Şöhrət” və “Şərəf” ordenli, iqtisad elminin inkişafında məhsuldar xidmətləri olan Asəf Nadirovun 95 illik yubileyi ilə əlaqədar tərtib edilən biblioqrafik göstəricidə alimin Azərbaycan Elmlər Akademiyasında çalışdığı 62 il ərzində rəhbərliyi ilə müdafiə edilmiş 7 elmlər doktoru, 70-dən artıq namizədlik dissertasiyası toplanmışdır. Bu biblioqrafik göstərici akademik Asəf Nadirov haqqında tərtib edilmiş növbəti biblioqrafiyadır. Bundan öncə tərtib edilmiş biblioqrafiyalar AMEA Mərkəzi Elmi Kitabxanası tərəfindən 1992-ci və 2005-ci illərdə nəşr edilmişdir. Bu göstəriciyə 1956-2024-cü illərdə çap olunmuş 732 adda mənbə daxil edilmişdir.

Görkəmli tarixçi və şərqşünas alim, tanınmış ictimai xadim, akademik Ziya Bünyadovun 100 illik yubileyi münasibətilə tərtib edilən biblioqrafik göstəriciyə 1953-2024-cü illəri əhatə edən Azərbaycan, rus, özbək, türk, ərəb, Avropa dillərində çap olunmuş 1328 adda mənbə daxil edilmişdir ki, bunlardan 639-u müəllifin araşdırmaları və tərcümələri nəticəsində ərsəyə gəlmiş kitab və məqalələrdir. Bu göstərici alim haqqında tərtib edilmiş sayca beşinci biblioqrafik göstəricidir. Öncəki göstəricilər 1988,1994,2004, 2012-ci illərdə çap olunmuşdur.

Görkəmli epiqrafikaşünas alim, AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor, “Şöhrət” ordenli Məşədixanım Səədulla qızı Nemətin 100 illik yubileyi münasibətilə biblioqrafik göstəricisi çap edilmişdir. Göstərici 1955-2013-cü illəri əhatə edir. Alim haqqında 2008-ci ildə 241 mənbəni əhatə edən ilk biblioqrafiya Vəfa Quliyeva və Şəfəq İslamova tərəfindən tərtib edilmişdir. Göstəricidə ümumilikdə 300-dən çox mənbə toplanılmışdır ki, bunlardan 218-ni alimin elmi əsərləri – dissertasiya işləri, kitabları, dövri və ardı davam edən nəşrlərdə, habelə elmi konfrans və simpoziumlarda Azərbaycan və xarici dillərdə çap olunmuş məqalələri təşkil edir. Bundan əlavə, alim haqqında 60 mənbənin və redaktə etdiyi 15 mənbənin biblioqrafik məlumatları da müvafiq bölmələrdə yerləşdirilmişdir.

AMEA-nın müxbir üzvü Əməkdar elm xadimi Hacıfəxrəddin Səfərlinin 75 illik yubileyi münasibətilə biblioqrafik göstəricisi çap olunmuşdur. Alimin elmi-pedaqoji və ictimai fəaliyyətinin 1979-2024-cü illərini əhatə edən biobiblioqrafiyaya daxil edilmiş mənbələr ümumilikdə 6 bölmə, 18 yarımbölmə içərisində xronoloji qaydada qruplaşdırılmışdır [1].

Çap olunmuş biblioqrafik göstəricilər respublikamızın bütün elm və təhsil işçiləri, doktorantlar, magistrlər, tələbələr və ali məktəblərin professor, müəllim heyəti üçün olduqca faydalıdır.

**Ədəbiyyat**

1. AMEA Mərkəzi Elmi Kitabxananın hesabatı, 2024-cü il.
2. *Əliyev Z.* Ümumi biblioqrafiyaşünaslıq: dərs vəsaiti.- Bakı: Bakı Universitet Nəşriyyatı, 2001. – 145s.
3. Mərkəzi Elmi Kitabxananın bukleti. - Bakı, 2005. – 56 s.